**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№330/1** **05 may 2021-ci il**

**2020-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının 1.10-cu "2020-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi" bəndinin icrası ilə əlaqədar və Auditorlar Palatası Şurasının 2014-cü il 27 dekabr tarixli 259/4 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda"ya əsasən Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən təqdim edilmiş reytinq cədvəlini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2020-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi ilə əlaqədar hazırlanmış "Auditorların reytinq cədvəli" bəyənilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir ay müddətində "Auditorların reytinq cədvəli"ndə hər kateqoriya üzrə 1-ci, 2-ci və 3-cü yerləri tutmuş Palatanın üzvlərinə fərqlənmə diplomlarının hazırlanması və təqdim edilməsi təmin edilsin.
3. Bu qərarın mətni və "Auditorların reytinq cədvəli" Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**